# *PEDAQOJİ ELMLƏR*

## Ailə tərbiyəsinin priyomları və vasitələri

**Akif Abbasov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*respublikanın Əməkdar müəllimi*
**E-mail:** a.abbasov@arti.edu.az

**Rəyçilər:** p.ü.e.d., prof. F.B. Sadıqov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** ailə, ailə tərbiyəsi, priyomlar, ailə tərbiyəsinin priyomları, vasitə, ailə tərbiyəsinin vasitələri
**Ключевые слова:** семья, семейное воспитание, приемы, приемы семейного воспитания, средство, средства семейного воспитания
**Key words:** family, family upbringing, receptions, methods of family upbringing, means, means of family upbringing

Heç də yalnız təhsilli şəxs deyil, eyni zamanda və daha zərurisi, özünə hörmətə və başqalarına münasibətdə hörmətli olan, nümunəvi davranış rəftar və ünsiyyət tərzinə malik şəxs mədəni insan sayıla bilər. Odur ki, valideynlər (məktəbdə isə pedaqoji kollektiv) əməkdaşlıq və qarşılıqlı anlama əsasında ətrafdakılarla qarşılıqlı əlaqə prosesində uşaqlarda qarşılıqlı münasibətləri qurmaq bacarığı tərbiyə etməlidirlər. Ailənin borcu və vəzifəsi bu olmalıdır ki, övladlarına yalnız təhsil verməsinlər, həm də müstəqilliyə, təşəbbüskarlığa, idrak fəallığına və sosial fəallığa, tolerantlığa yiyələnmiş nəsil yetişdirsinlər.

*Priyom* metodun tərkib hissəsi, yaxud onun ayrıca bir tərəfi, detalıdır. Başqa sözlə, “metod”un ümumi anlayışına münasibət üzrə xüsusi anlayışdır. Nəql – təlimin metodudursa, fəaliyyət barədə məlumat, özünü aparmaq qaydaları haqqında məsləhət və tələblər – diqqətin, uşağın fəallaşdırılması priyomu olub, qavrayışın sistemliliyini, uşağın davranış və rəftarının tənzimlənməsini təmin edir.

Ailədə uşaqların dərslik və kitabla işinin təşkili metodu ilə bağlı aşağıdakı priyomları fərqləndirirlər: konspektləşdirmə, icmalın planının tərtibi, tezislərin yazılması, iqtibas gətirmək, rezensiya vermək, mövzuya aid lüğəti yazmaq.

Pedaqoji səriştəlilik valideyndən tərbiyənin metodikasına, onun metod və priyomlarına bələd olmağı tələb edir.

Tərbiyənin priyomları — uşağın baxışlarını, motivlərini və davranışını dəyişən, davranışına, rəftarına, ünsiyyət tərzinə, mövqeyinə göstərilən xarici təsirlərdir. Nəticədə uşağın ehtiyat imkanları fəallaşır, o, müəyyən tərzdə hərəkət etməyə başlayır.

Tərbiyənin 3 qrup priyomlarını diqqət mərkəzinə gətirmək olar:

Birinci qrup priyomlar uşaqların evdəki, ailədəki, məktəbdəki fəaliyyətinin təşkili ilə bağlıdır.

*“Qarşılıqlı yardım” priyomu.* Ailədə valideyn uşaqların fəaliyyətini elə təşkil edir ki, bacı-qardaşlar bu və ya digər işdə (*dərsləri hazırlamaqda, otaqları yığışdırmaqda, bağ-*

*bağçada görülən işlərdə*) bir-birinə kömək etsinlər.

*"Yaxşı işə münasibət" priyomu.* Ata, yaxud ana övladları ilə söhbət zamanı onların hər birinin müsbət cəhətini, gördükləri işlərdəki, tapşırıqların yerinə yetirilməsindəki, təlim müvəffəqiyyətindəki uğurları qeyd edir. Bu, uşaqlarda öz səmərəli fəaliyyətlərinə, öz yaxşı işlərinə, davranış və rəftar tərzinə görə fərəh hissi keçirmələrinə, xeyirxah əməllər carçıları olmalarına şərait yaradır. Valideynin qiymətləndirməsi, təbii ki, obyektiv və ədalətli olmalı, konkret faktlara söykənməlidir.

*İkinci qrup priyomlar* dialoq refleksiyasının təşkili ilə bağlıdır.

*Dialoq refleksiyası* valideyn və övlad arasındakı dialoq olub, onun müvafiq davranış, hərəkət və əməllərində təzahür edən hər hansı əhəmiyyətli, gərəkli bir işə münasibətinin uşaqda formalaşmasına imkan verir.

Uşaqla reflektiv söhbət zamanı aşağıdakı priyomların tətbiqi məqsədəuyğundur:

*"Xoş sözlər" priyomu.* Uşağa təklif olunur ki, o, roman, kino, teatr qəhrəmanlarının başqa adamlara dedikləri xoş sözləri xatırlasın.

*"Təklif olunan mövzu üzrə yaradıcılıq".* Tapşırığa əsasən uşaq modelləşmə, konstruksiya, səhnələşdirmə işlərini həyata keçirir, ədəbi, musiqili və digər qeydlər edir.

*"Qardaşının, bacısının sevimli kitabları" priyomu.* Bacı-qardaşlarının hansı kitabları (*kinofilmləri, mahnıları*) xoşladığını uşağa tapşırmasq.

*"Əhvalatı başa çatdır" priyomu.* Bu və ya digər əsərdən, kinodan, həyatdan, tamaşadan bir epizod danışılır, yaxud yada salınır. Həmin əhvalatın şərhi yarıda saxlanılır və uşağa tapşırılır ki, hadisələri yadına salıb onu tamamlasın.

Tərbiyənin bu və ya digər üsulu həm müstəqil metod kimi, həm də tərbiyənin priyomu kimi çıxış edir. Məsələn, başasalma tərbiyənin müstəqil metodu olur. Əgər valideyn başasalmadan uşaqların yol verdikləri nöqsanların yolverilməz olması məqsədilə praktik işin gedişində epizodik şəkildə istifadə edilirsə, yaxud bu və ya digər vəzifələrin həlli məntiqinin açılması məqsədilə ona müraciət olunursa, belə halda izah praktik işin metoduna daxil olan tərbiyənin priyomu kimi özünü göstərir.

Qeyd etdiyimiz kimi, priyomlar metodun komponenti, onun tərkib hissəsidir. Bir metodun daxilində bir neçə priyomun olması mümkündür. Tutaq ki, valideyn vətənpərvərlik mövzusunda söhbət aparır. Bu zaman o, nitqini təsirli etmək, övladlarının Vətənə olan sevgisini daha da artırmaq, onlarda doğma yurdu qorumaq, onun rifahı naminə çalışmaq tələbatı formalaşdırmaq üçün konkret nümunələrə müraciət edir, Milli qəhrəmanları və onların hünərlərini yada salır, bədii əsərləri, film və tamaşaları və buradakı əsas obrazları xatırladır, tərbiyəvi vəziyyətlər yaradır. Bütün bunlar ata-ananın müraciət etdiyi priyomlardır. Deməli, priyom həm də metodun təsir dairəsini genişləndirir.

Tərbiyənin priyomlarını (tərzlərini): 1) Müsbət keyfiyyətlərin inkişafına yönələn priyomlara; və 2) mənfi keyfiyyətlərin ləngidilməsinə yönələn priyomlara ayırmaq mümkündür.

Pedaqoqlar birinci qrup priyomlara – xahiş; nəvaziş; müəllimin (tərbiyəçinin, valideynin) məharəti; məktəbli üçün əziz olan hisslərə əsaslanmaq; onun kədərinə və sevincinə şərik olmaq; təəssüf; həvəsləndirmə və s. və i.a.;

İkinci qrup priyomlara isə — xəbərdarlıq, tənbeh, məzəmmət, eyham, tənqid, həyəcanlanma, "görməməzlik", "partlayış" və s. daxil edirlər.

Pedaqoji priyomlar saysız-hesabsızdır. Hər bir vəziyyət yeni-yeni priyomlar doğurur. Hər valideyn özünün fərdi üslubuna uyğun gələn priyomlardan faydalanır.

Bir uşağa uyğun gələn priyom digər uşaq üçün səciyyəvi olmaya bilər.

Pedaqoji ədəbiyyatda tez-tez *"vasitə"* anlayışı da işlədilir. Priyomla müqayisədə götürdükdə, vasitə daha geniş anlayış sayılır. Tərbiyəvi fəaliyyətin gedişində valideyn bir çox vasitələrdən faydalanır.

*Vasitə* və *priyom* metod anlayışı ilə sıx surətdə əlaqədardır. *Tərbiyənin vasitələri* həmişə onun məqsədi və məzmunu ilə sıx şəkildə bağlı olub. Vasitə fəaliyyətin alətidir, başqa sözlə, onun köməyilə bu və ya digər fəaliyyət həyata keçir. Ata, anaya başa salmaqda, uşağa başa düşməkdə, öz övladlarının fəaliyyətini təşkil etməkdə kömək göstərən hər şey və mənbələr *tərbiyənin vasitələridir.*

*Tərbiyənin vasitələri* tərbiyə prosesinin mühüm komponentidir. Tərbiyə vasitələri dedikdə, nümunəvi davranış, rəftar və ünsiyyətə yiyələnmək üçün valideyn və uşaqlar tərəfindən istifadə olunan maddi və ideal obyektlər nəzərdə tutulur. Tərbiyənin vasitələri ata-ananın informasiya və idarəetmə funksiyalarının həyata keçirilməsində əhəmiyyətli rol oynayır. Onlar məktəblilərin idraki proseslərinin işə salınmasına və inkişaf etdirilməsinə kömək edir.

Tərbiyənin vasitələri və metodlarının əlaqəsi birmənalı deyil: tərbiyənin vasitələrindən, hər şeydən əvvəl müxtəlif metodlarla uzlaşmada istifadə olunur, yaxud əksinə. Belə ki bir metoddan istifadə etmək üçün bir neçə adekvat (uyğun) vasitə seçmək mümkündür.

Tərbiyənin vasitələrinə aiddir: valideynin sözü, nağıl, hekayə kitabları, dərsliklər, dərs vəsaitləri, kino, radio, televiziya, videomaqnitofon, kompüter və s.

Tərbiyənin vasitələri pedaqoji prosesə təsir edən əsas amillərdəndir. Məktəblilərin təfəkkürünün və təxəyyülünün inkişafına, zəruri bilik və məlumatlara, həyati bacarıqlara yiyələnmələrinə diqqət yetirilir. Tərbiyənin vasitələrinin kompleks tətbiqi zamanı vasitələrdən biri aparıcı, digərləri onun əlavələri kimi özünü göstərir.

Tərbiyənin vasitələrinin hər bir növünün özünəməxsus səciyyəvi xüsusiyyətləri, didaktik-tərbiyəvi funksiyaları vardır. Uşaqların və valideynin fəaliyyəti qarşılıqlı olur. Tərbiyə prosesində uşaq ata-anasının rəhbərliyi altında tərbiyə vasitələrinin köməyilə ətraf aləmi dər edir, nəyin yaxşı, bəyin pis olduğunu, necə davranmağın, şəxsiyyətlərarası münasibətlərdə özünü necə aparmağı öyrənir. Uşaq üçün öyrənmə — dərketmə prosesi, fəaliyyəti isə idrak prosesidir. Valideyn informasiya mənbəyi rolunu oynayaraq, övladlarının idrak fəaliyyətini təşkil edir, onların fəaliyyətinin görünən nəticələrinə nəzarət edir və onu qiymətləndirir, uşaqları fasiləsiz tərbiyələndirir.

Ümumiyyətlə, oyun, əmək, idman və s. xalq yaradıcılıq nümunələri, incəsənət əsərləri, kitab, dərslik, əyani və texniki vasitələr, informasiya kommunikasiya texnologiyaları və sair tərbiyə məqsədinə xidmət göstərirsə onun vasitələri olur.

**Məqalənin aktuallığı.** Ailə tərbiyəsinin vasitələri və priyomlarının müəyyənləşdirilməsi "Ailə pedaqogikası"nın mühüm problemi kimi aktuallıq daşıyır.

**Məqalənin elmi yeniliyi.** Ailə tərbiyəsinin vasitələri və priyomları diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ailə pedaqogikası üzrə araşdırmalara qoşulan gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. A.N. Abbasov. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. A.N. Abbasov. Pedaqogika; Müxtəsər konspekt və sxemlər. Bakı: Mütərcim, 2007.

**А. Аббасов**

## Приемы и средства семейного воспитания

## Резюме

Важно классифицировать приемы и средства воспитания. Классификация дает возможность упорядочить приемы и средства представить их педагогический потенциал в целостном виде: определить их место в процессе формирования личности, указать на те конкретные действия, которые они оказывают в воспитательном процессе.

**A. Abbasov**

## Receptions and means of family upbringing

## Summary

It is important to classify methods and means of upbringing. The classification makes it possible to streamline the methods and means to present their pedagogical potential in a holistic way: to determine their place in the process of personality formation, to point out the specific actions that they have in the upbringing process.

**Redaksiyaya daxil olub:** 06.05.2019